*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 avqust 2016-cı il № 64 (2079) Qiyməti 25 qəpik


*Cəbhə bölgəsindən reportaj*

## İgidlərin məskəni zirvələrdir

*Tanrının Azərbaycana bəxş etdiyi təbii sərvətlər bitib tükənmədiyi kimi, rəngarəng iqlim qovşağına malik olan ölkəmiz həm də füsunkar təbiəti ilə ad çıxarıb. Vətənimizin qərbindən şərqinə, şimalından cənubuna yol alanda neçə dəfə iqlimin dəyişdiyini, ətraf aləmin minbir bəzəyə büründüyünə şahid oluruq. Daşkəsən bölgəsi də saf havası, dumduru çeşmələri, zirvəsindən qarı-buzu əskik olmayan yaylaqları ilə tanınır. Artıq neçə illərdir ki, bu zirvələr yurdumuzu göz bəbəyi kimi qoruyan igidlərin ünvanıdır. Azərbaycanın şəhər və rayonlarından hərbi xidmətə çağırılan gənclər dağlarda səngər quraraq Vətənimizi düşməndən müdafiə edirlər. Hər əsgər nəsli bir-birini əvəz etdikcə, torpağı and yeri bilərək onun uğrunda can əsirgəməyən cəngavər döyüşçülərimizin də sıraları genişlənir...*



Qərargahda çoxdan tanıdığım təcrübəli hərbçi Etibar Əhmədovla görüşəndə qayğılı olduğu diqqətimdən yayınmır. Yeni tədris dövrünün başlandığını bildirən zabitə görə, indi hərbi bölmələrdə zabit-gizirdən tutmuş əsgərə qədər-hamının qayğıları başından aşır. "Bu bölgədə qış qapını döyməmiş hazırlığı başa çatdırmaq olduqca zəruridir. Dağların zirvəsində torpaqlarımızı qoruyan döyüşçülərin bütün qış qayğıları indidən həllini tapır. Sərt döngəli, sıldırımlı dağ yollarında yağışda, qarda hərəkət çətinləşdiyi üçün ön xətdəki bölmələrin qışa hazırlığına ciddi fikir verilir. Dövlətimizin və ordu rəhbərliyinin qayğısı sayəsində ən ucqar mövqelərimizdə belə əsgərlər üçün müasir məişət şəraiti yaradılıb. Belə əlverişli şərait isə şəxsi heyətə yüksək döyüş ruhu aşılamaqla onları qarşıya qoyulmuş mühüm tapşırıqların əzmlə yerinə yetirilməsinə ruhlandırır", - deyə zabit söhbətimizdə bildirir.

**(Ardı 2-ci səhifədə)**



Dağ vüqarlı oğullar

3-cü səhifədə



Hərbi dənizçilərimizin uğuru

4-cü səhifədə



"Tank biatlonu" yarışlarında hədəfləri məhv etmiş gizir

5-ci səhifədə



Jurnalistlərin təlimi

8-ci səhifədə

# İgidlərin məskəni zirvələrdir

**(Əvvəli 1-ci səhifədə)**

Bir azdan üzü dağlara yol alırıq, dədə Ələsgərin böyük ustalıqla vəsf etdiyi qüdrətdən səngərli, qalalı dağlara. Yüksəkliklərə qalxdıqca havanın dəyişildiyni dərhal hiss edirsən. Sıldırımlı yamacları dolaşan daşlı-kəsəkli yollarda müddətdən artıq xidmət hərbi qulluqçusu olan sürücümüzün şəriştəsinə heyran qalırsan. Özünün dediyi kimi, bu yerlər ona doğmadır, hər cığırına yaxşı bələddir. Elə buna görə də maşını ustalıqla idarə edir.



## Dövlətin əsgərə etimadı

Bir neçə saatlıq yol qət etdikdən sonra lap dağın zirvəsində yerləşən bölmələrdən birinə yetişirik. İnanın ki, elə bir yüksəklikdə əsgərlərimiz üçün yaradılan məişət şəraitini görəndə heyran qalıram. Hər şey qaydasındadır, hansısa bir çatışmazlıq nəzərə çarpmır. Əsgərlərin yataq dəstlərini əlimlə tərpədib baxıram, tərtəmizdir. Yuyunmaq üçün bütün şərait var, qidalanma da tam qaydasındadır. Peşəkar aşpaz olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun zəhməti sayəsində milli xörəklərimiz yüksək keyfiyyətlə hazırlanır. Ərzaq anbarında isə bütün növ qida təminatı üçün ərzaqlar səliqə ilə qablaşdırılıb. Vətənimizin keşiyini çəkən oğulların belə şəraitdə xidmət etmələri elə ilk andan məndə xoş ovqat yaradır. Düşünürəm ki, öz əsgərinə etimad göstərən Azərbaycan dövləti, onun Prezidenti daim ordunun yanındadır. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev dəfələrlə bəyan edib ki, ordu quruculuğunu daha da inkişaf etdirmək onun siyasi kursunun əsas istiqamətlərindən biridir.

Bölmə komandiri baş leytenant Cavidan Əsədov söhbətimizdə bildirir ki, son illər dövlət rəhbərliyi səviyyəsində orduya, şəxsi heyətin sosial şəraitinə göstərilən yüksək diqqət və qayğı hər kəsdə xoş əhval-ruhiyyə yaradıb. "Dünyanın nüfuzlu ölkələrinin iqtisadi böhran məngənəsində sıxıldığı bir vaxtda Azərbaycanda orduya artan diqqət və qayğı hamımızı ürəkləndirib. Hər addımda dövlətin öz əsgərinə, hərbçisinə olan yüksək qayğısını hiss edirik. Müasir silah-sursat və hərbi texnika ilə təmin edilən ordumuzda hərbçilərin sosial-məişət şəraitinə də ciddi fikir verilir. Müdafiə Nazirliyinin rəhbərliyi daim ön xəttə baş çəkir və əsgərlərin bütün qayğıları ilə dərindən maraqlanır. Bütün bunlar isə şəxsi heyətin döyüş ruhunu gücləndirən əsas amillərdən biridir."

Döyüş növbəsinə çıxacaq əsgərlərin təlimatlandırılmasında iştirak etdikdən sonra postlara baş çəkirik. Hər biri alınmaz qala hesab olunan postlarda isə bir-birindən mətin, iradəli, hər an qəhrəmanlıq göstərməyə qadir olan gənc döyüşçülərimizlə tanış oluruq. Onların Vətənimizə, xalqımıza olan sevgiləri hər kəlmələrindən hiss edilir. Düşünürsən ki, hər birinin köksündə Vətən adlı bir ürək döyünür, üzərində boy atdığı torpağa əsl Vətən sevgisi olan əsgər isə qürurlu, qorxmaz döyüşçüdür. Əslində ordunun gücü onun əsgərindədir, yurda, millətə sıx tellərlə bağlı olan əsgər daim fədakarlığa can atır. Bunu aprel döyüşləri də bir daha sübuta yetirdi. Çox qısa müddətdə düşmənə gücünü sübut edən Azərbaycan əsgəri bütün dünyaya bəyan etdi ki, sıralarında məğrur döyüşçüləri birləşdirən bir ordu üzərinə düşən bütün tapşırıqları yerinə yetirməyə qadirdir.



## “Qardaşım da bu postda xidmət edib”

On bir ayın əsgəri olan Anar Şahbazovla söhbətləşirəm. Qarşı tərəfin mövqelərini diqqətlə nəzərdən keçirən əsgər deyir ki, Biləsuvar rayonundan hərbi xidmətə çağırılıb.

- Qardaşım Zamin də burada əsgərliyini başa vurub, - deyir biləsuvarlı balası. - Onda 15 yaşım var idi. Bir dəfə atamla onun yanına gəlmişdik. Qardaşımın dünyagörüşündə olan dəyişiklik məndə maraq oyatmışdı. Elə bilirdin ki, qısa vaxtda çox dəyişilib. Zəhmli, iradəli olmuşdu. Atam onda mənə demişdi ki, darıxma, oğlum, sən də əsgərliyə gedəndə mətinləşəcəksən, qoçaq və cəsur döyüşçü olacaqsan. İndi xoşbəxtəm, çünki bir vaxtlar qardaşımın qoruduğu mövqelərin keşiyində dayanmışam.

***- Anar, ilk dəfə döyüş növbəsinə çıxdığın günü xatırlayırsanmı?***

- Əlbəttə, xatırlayıram. Onda təlim dövrünü başa vurub yenicə ön xətdəki bu taqıma gəlmişdik. Çox qürurlu idim, axı 3 min metrdən artıq yüksəklikdə dayananda hər yan adama qəribə görünür. Elə bilirdim ki, əlimi uzatsam buludlara toxunacaq. İlk gündən mehriban, səmimi bir kollektivdə olduğumu hiss etdim. Həm komandirlərimin, həm də təcrübəli əsgər dostlarımın köməyi ilə Vətəni qorumağın sirlərini öyrəndim. İlk dəfə döyüş postuna gedəndə əsgər dostum İnşallah Quliyev də mənimlə idi. O çoxdan tərxis olunub, amma bir dost kimi daim onu xatırlayıram. Bayramlarda, əziz günlərdə zəngləşirik. Özümə söz vermişəm ki, hərbi xidmətimi başa vurub doğmalarımla görüşəndən sonra onlara gedəcəyəm.

## Vətəni qorumaq imandandır

- Müqəddəs kitabımız olan "Qurani-Kərim"də göstərilir ki, Vətəni, yurdu, el-obanı qorumaq imandandır, - deyə Sabirabad rayonundan əsgərliyə gəlmiş Seyidəhməd Hüseynov bildirir. - Ailəmiz seyidlər nəslindəndir, erkən çağlarımdan evimizdə ilahiyyatla bağlı söhbətləri dinləmişəm. Atam deyir ki, Vətən uğrunda döyüşüb şəhid olanları sadəcə ölü hesab etmək olmaz. Onlar şəhidlik kimi ən uca mənəviyyat zirvəsini fəth edən insanlardır. Aprel hadisələrində cəmiyyətimiz öz şəhid övladını böyük ehtiramla yad etdi, hər bir şəhidin dəfnində minlərlə insan iştirak edirdi. Bu hadisələr göstərdi ki, bizlərin timsalında Azərbaycanda mübariz nəsil yetişib, hansı ki, bir əmrlə torpaqlarımızı işğaldan azad edə bilər.



***- Əsgərliyin necə keçir?***

- Döyüş vəzifəm atıcıdır, artıq yarım ilin əsgəriyəm. Təlim dövründə avtomat silahın atış xüsusiyyətlərini öyrənmişəm, digər silah və texnikalar haqqında da məlumatlıyam. Hər döyüş növbəsi bizim üçün ciddi sınaq deməkdir, çünki döyüş postunda ayıq-sayıq dayanaraq Vətənimizi düşmənlərdən qoruyuruq. Postlarda elə sayıqlıq var ki, quş da bura qanad sala bilməz.

***- Qarşı mövqelərə diqqətlə baxırsan, hansı hisslər keçirirsən?***

- Qarşımızda uzanıb gedən ərazilər də bizə məxsusdur, xalqımızın qədim yurd yerləridir. Bax, gördüyümüz o yüksəkliklər Kəlbəcərin ərazisidir. İndi o yerlər düşmən tapdağında olsa da, tezliklə oraları işğaldan azad edəcəyik. Göylərə baş vuran dağlarımıza baxanda o yerlərdən didərgin düşən adamları xatırlayıram. Kövrəlirəm ki, görün nə qədər insan illərdir doğma el-oba həsrəti çəkir. Düşmənə nifrətim sonsuzdur, bu dəqiqə bir döyüş əmri ilə savaşa atılmağa hazıram.

Bölmə komandiri də söhbətimizə qoşulub deyir ki, sıralarımızdakı hər bir əsgərin ürəyi qələbə əzminə köklənib. "Hər dəfə əsgərlərlə söhbətimdə bu qədim yurd yerlərimizin tarixindən, keçmişindən söhbət açıram. Bakılı, şəkili, şirvanlı, lənkəranlı olmasının fərqinə varmadan hər kəs Vətən sevgisinə köklənib. Düşmənə qəzəb hissi ilə hamı döyüşlərin başlanacağı günü səbrsizliklə gözləyir. Aprel döyüşlərində burada da əlimiz silahın tətiyində bircə əmr gözləyirdik ki, qarşı tərəfə hücuma keçək. Əgər hücum başlayarsa, bir gün də düşmən qarşımızda tab gətirə bilməz. Xidmət müddətini başa vuran əsgərlər apreldə tərxis olunmaq istəmirdilər, axı onlar da döyüşmək, Vətənimiz, torpağımız uğrunda fədakarlıq göstərmək və öz adlarını qəhrəmanlıq tariximizə həkk etdirmək istəyirdilər".

Bir manqanın əsgərləri ilə görüşümzü yekunlaşdırıb digər postlara yola düşürük. Amma igid, cəngavər Vətən oğullarından ayrılmaq istəmirəm. Ayrılanda bir əsgərin dilindən eşitdiyim söz qəlbimi qürurlandırır: "Kaş biz də aprel döyüşlərinin qəhrəmanlarından olaydıq..."

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MÖHBALIYEVİNDİR**

# Dağ vüqarlı oğullar

*Bu dəfə Əlahiddə Ümumqoşun Ordunun dəniz səviyyəsindən 3000 metr yüksəklikdəki bölmələrindən birində şəxsi heyətin xidmət şəraiti ilə tanış olmaq, dağ vüqarlı ərənlərin təəssüratlarını öyrənmək məqsədi ilə qartalın belə qanad saldığı uca zirvələrə yol aldıq. Yolboyu qartalların uçuşuna, kəkliklərin qaçışına şahid olduq, dağ qoyunu və dağ keçisi sürülərini gördük. Həmin istiqamətdə gecələr ova çıxdıqlarına görə gözümüzə dəyməyən, lakin mövcud olan oxlu kirpi, Qafqaz bəbiri, çöl pişiyi, vaşaq, canavar və s. kimi nadir tapılan növlər də var. Bu da vətənimizin hər qarışı kimi flora və faunasının da yüksək səviyyədə qorunduğunu göstərir.*



Çətin və sıldırımlı yollarla təcrübəli sürücü, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Murad Muradovun idarə etdiyi nəqliyyat vasitəsi ilə yola çıxırıq. Zabit Niyaz Mehdiyev çətin dağlıq şərait olmasına baxmayaraq əsgərlərin müasir məişət-yaşayış kompleksindən, ordumuzun müdafiə potensialının artırılması istiqamətində aparılmış işlərdən fəxrlə danışır. Budur, artıq mənzil başına çatırıq. Həqiqətən burada yaradılan yüksək şərait Azərbaycan dövlətinin malik olduğu hərbi qüdrəti özündə ehtiva edir.

Havanın temperaturundan, asılı olmayaraq burada şəxsi heyət canla-başla xidmət aparır. Əsgərlərimizin bir günlük xidmətlərinə nəzər salsaq görərik ki, günəşin doğuşu ilə yeni xidmət günü başlayır. Amma ərənlərimizin xidməti günəşin batması ilə yekunlaşmır. Bölmədə şəxsi heyət yeni xidmət günə "qalx" komandası ilə başlayır. Cəld yerindən qalxaraq əynini geyinən şəxsi heyət ilk olaraq bölmənin ərazisindəki idman şəhərciyində səhər idmanı ilə məşğul olur.

Sonra hamı yuyunur, sıraya hazırlaşaraq üst-başlarını səliqəyə salır. Bölmənin şəxsi heyəti qida rasionunda nəzərdə tutulan yüksək kalorili yeməklərlə qidalanır. Sonra səhər yerbəyeri olur. Günün nizam qaydasına uyğun olaraq əsgərlər komandirlərinin rəhbərliyi ilə postlarda döyüş növbətçiliyinə, eləcə də dərs və məşğələlərə yollanırlar.

Hakim yüksəkliklərdə, çətin dağlıq şəraitdə, düşmənlə üzüzə mövqelərdə bütün tapşırıqların öhdəsindən layiqincə gələn şəxsi heyətin nümunəvi xidməti üçün dövlətimiz tərəfindən yaradılan hərtərəfli şərait düşmənlərimizə göz dağıdır. Çətin dağlıq şəraitdə müasir əsgəri yaşayış kompleksinin istifadəyə verilməsi xalq-ordu birliyinin, əsgər və zabitlərə göstərilən qayğının daha bir ifadəsidir. Binada əsgər və zabitlər üçün yataq otaqları, məişət və ideoloji otaqlar, tibb otağı, mətbəx, yeməkxana, eləcə də komandir heyəti üçün xidməti otaqlar var. Yataq otaqları keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqlarla təchiz olunub. Bölmənin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan bina telefon, daimi işıq və istilik sistemi ilə təchiz edilib. Burada əsgərlərin asudə vaxtlarının səmərəli təşkili üçün də hər cür şərait yaradılıb.

Nümunəvi xidmət etdiklərinə və təşkilatçılıq qabiliyyətlərinə görə çavuş hazırlığı kurslarına cəlb edilərək kiçik çavuş hərbi rütbəsi verilən gənclərdən Rəşad Nürəddinli, Süleyman Tağıyev, Tofiq Hüseynov, Fariz Məmmədov, eləcə də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ön xəttdə xidmət aparan Abbas Məmmədov, Rüstəm Əliyev, Müzəffər Ağayev və başqaları komandir və rəislərin ən yaxın köməkçiləri hesab edilirlər. Xidmətin düzgün təşkilinin nəticəsidir ki, şəxsi heyət döyüş növbətçiliyini uğurla həyata keçirir.



Nümunəvi xidməti ilə seçilən əsgərlərdən Mirsəlim Seyidov, Rauf Paşayev, Elmar Zeynalov, Məhəmməd Həsənov, Yusif Məmmədov, Adil Rəcəbov, Əbülfəz İmanov, Xəyal Zeynalov, Ruslan Nəcəfov və başqalarının təəssüratlarını öyrəndim. Onlar bildirdilər ki, ön xəttdə xidmət etməkləri ilə qürur duyur, verilən tapşırıqları vaxtında və çevik yerinə yetirirlər. "Biz nə qədər ki, döyüş postlarında, əlimizdə silah Vətən torpaqlarının müdafiəsində ayıqsayıq dayanmışıq, heç bir düşmən bizi məğlub edə bilməz", - deyə əsgərlər bildirdilər.

Hərbi bölmədə şəxsi heyətə taktiki hazırlıq dərsi keçirilirdi. Dərsdən sonra əsgərlərdən Bəhman Əsgərov, Həsən Babayev, Samir Şükürov, Emin Tağıyev, Ramal Məmmədov, Şahmar Bəylərov, Xanoğlan Kərimov, Salam Əzizov, Ağəli Cəfərov, Elməddin Şirinov, İsmayıl Cabbarlı, Nail Qənbərov və başqalarının da təəssüratlarını öyrənə bildim. Onlar fikirlərini bölüşərək bildirdilər ki, hər bir təlim-atış çalışmasında hədəfləri məhv etməyi bacarırlar.

Zabitlərdən Anar İsmayılov, Emil Məmmədov, Babək Göyüşov, Taleh Abışov və Şahin Ağayev də söhbətlərində bildirdilər ki, əsgərlərin mənəvi-psixoloji hazırlıq səviyyəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsində əhəmiyyətli tədbirlər həyata keçirilir. Hər bir zabit çalışır ki, bölmənin əsgərləri hərtərəfli biliyə malik Vətənin ayıq-sayıq müdafiəçisi olsunlar. Xüsusilə dağlıq ərazilərin təbiətini və relyef xüsusiyyətlərini bilmək döyüş tapşırıqlarının icrasını dəqiq yerinə yetirməyə kömək edir. Təlimlər zamanı silahların təyinatı, onların taktiki-texniki xassələri və onlardan istifadə qaydaları ilə yanaşı, mürəkkəb dağlıq şəraitdə döyüş əməliyyatlarını düzgün aparmaq üçün lazımi təlimatlar da verilir. Bunun üçün şəxsi heyətə ilk növbədə, yüksək dözümlülük, iqlimə uyğunlaşmaq, təhlükəsizlik qaydalarına əməl etmək kimi mühüm amillər də öyrədilir.

Hazırda yay fəslini yaşamaqdayıq. Amma uca zirvələrdə qışın ömrü uzun olur. Qonağı olduğumuz məkanda ilin hər fəsli qışı xatırladır. Yalnız yağıntının miqdarında fərq olur. Həmin məkanda bəzən sən buluddan deyil, bulud səndən aşağıda olur. Ona görə də dövlətimiz tərəfindən çətin hava və relyef şəraiti nəzərə alınaraq dayaq məntəqələri, postlar hiylələr düşmənin hücum və təxribatlarının qarşısını almağa qadir olan silah və texnika ilə təmin edilib. Müasir cihazlarla ən çətin hava şəraitində belə qarşı tərəfin mövqelərini nəzarətdə saxlamaq mümkündür. Müşahidə məntəqələri, səngər və əlaqə yolları əlverişsiz hava şəraitinə uyğunlaşdırılıb. Postlar arasında dayanıqlı rabitə əlaqəsi və rahat gediş-gəliş imkanı yaradılıb. Bu da xidmətin qarşılıqlı əlaqə zəminində təşkili baxımından əhəmiyyətlidir. Göründüyü kimi təmas xətti boyu mövqelərini gücləndirən Əlahiddə Ümumqoşun Ordunun dağlıq şəraitində yerləşən hissə və bölmələrində möhkəm müdafiə potensialı yaradılıb.

Qonağı olduğumuz hərbi bölmə də muxtar respublikamızın əsas müdafiə istehkamına və alınmaz qalasına çevrilib.



Şəxsi heyətin nümunəvi xidməti layiqincə qiymətləndirilir. Belə ki, intizamı, döyüş postlarındakı ayıq-sayıqlığı ilə seçilənlər qiymətli hədiyyələrlə, qısamüddətli məzuniyyətlərlə və digər vasitələrlə mükafatlandırılırlar. Bu dəfə də əsgərlər arasından nümunəvi xidməti ilə seçilən bir nəfər evlərinə qısamüddətli məzuniyyətə yola salınmalı idi. O, əsgər Emin Tağıyev idi.

Bir layiqli ənənə var ki, Naxçıvan Muxtar Respublikası ərazisindən həqiqi hərbi xidmətə çağırılan hərbi qulluqçulardan hər hansı biri qısamüddətli məzuniyyətə gedən zaman ölkəmizin digər bölgələrindən olan əsgərlərdən birini də özü ilə evlərinə qonaq apara bilər. Əsgər Emin Tağıyev də Ağdam rayonundan olan kiçik çavuş Rəşad Nürəddinlini özü ilə qonaq aparmaq istədiyini bildirdi və onların hər ikisinə də qısamüddətli məzuniyyət verildi.

Yolboyu həmsöhbət olduğum hər iki gənc bölmədə əsgərlər arasında formalaşan möhkəm dostluqdan ağızdolusu danışdılar. Əsgər Emin Tağıyev deyir: Naxçıvan şəhərində anadan olmuşam. Tam orta təhsilimi də burada almışam. Əsgərliyim ərzində çoxlu dostlar qazanmışam. Onlardan biri də bu gün evimizin qonağı olacaq Ağdam rayonundan olan kiçik çavuş Rəşad Nürəddinlidir.

Kiçik çavuş Rəşad Nürəddinli Ağdam rayonundan olsa da paytaxt Bakıda yaşadıqlarını, Ağdamı heç vaxt görmədiyini bildirdi.

- Mən də əsgərlik xidməti ərzində yaranan möhkəm dostluqların şahidiyəm - deyir Rəşad. - Əsgər yoldaşım Emin Tağıyevlə düşmənlə üz-üzə mövqelərdə, çiyin-çiyinə döyüş növbətçiliyi aparırıq. Bizim dostluğumuz da elə buradan başlanır və bu dostluğun ömürlük olacağına inanıram. Naxçıvan şəhərinin qədimliyi və gözəlliyi haqqında çox eşitmişəm, bu gün isə bu yerləri öz gözlərimlə görəcəyim üçün çox həyəcanlanıram. Bir gənc kimi arzum işğal altındakı torpaqlarımızın tez bir zamanda azad olunmasıdır. Hazırda əsgəri olduğumuz Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bunu aprel döyüşləri bir daha sübut etdi. Hər birimiz hücum əmri gözləyirik ki, düşməni darmadağın edək!

Biz Naxçıvan şəhərinə çatırıq. Əsgər övladının gələcəyindən xəbərsiz olan anası Güllər xanım və qardaşı Fərid Tağıyev həm sevincli, həm də təəccüblü halda bizi qarşıladılar. Bizi çay süfrəsinə dəvət edən Güllər xanım öz təəssüratlarını da bölüşdü. Övladlarının ön xəttdə nümunəvi xidmət etməsi ilə qürur duyduqlarını, Vətənə xidmətin dövlətimiz tərəfindən hər zaman qiymətləndirildiyini söylədi. Təbii ki, hər bir valideynin xoşbəxtliyi övladının ona başucalığı gətirməsidir.

Əsgərin atası Elman Tağıyev işdə olduğundan onun təəssüratlarını öyrənə bilməsəm də bir məqamı qeyd edim ki, övladı hərbi xidmət keçən hər bir valideyn sevinc və qürur hissi keçirir. Həm də ata-anaların sevinc və qürurunu ikiqat edən oğullarının nümunəvi xidmət etməsidir. Bütün bunlar da onu deməyə əsas verir ki, bu gün hər bir vətəndaşımızın onu qoruyan əsgərə inamı yüksəkdir, ordu xalqa, xalq da orduya güvənir.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Aydın ORUCOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Hərbi dənizçilərimizin uğuru

## Azərbaycan Hərbi Dəniz Qüvvələrinin gözətçi gəmisinin heyəti "Xəzər kuboku-2016" yarışlarında ikinci yeri tutub

*Rusiya Federasiyasında ənənəvi olaraq keçirilən "Beynəlxalq Ordu Oyunları-2016" müsabiqələrinə yekun vurulub. Dağıstan Respublikasının Kaspiysk şəhərində təşkil edilmiş "Xəzər kuboku-2016" yarışlarında Azərbaycanın hərbi dənizçiləri də iştirak ediblər. Müsabiqəyə Rusiya, Azərbaycan və Qazaxıstandan 130 nəfərə yaxın hərbi dənizçi qatılmışdı. Azərbaycan təmsilçiləri bu yarışlarda yüksək hazırlıq nümayiş etdirərək ümumi hesabda ikinci nəticə göstəriblər.*






- Hər şeydən öncə qeyd etmək istəyirəm ki, hərbi dənizçilərimizin uğuru Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və tələbkarlığın nəticəsidir, - bizimlə söhbətində Hərbi Dəniz Qüvvələri komandanının müavini, "Xəzər kuboku-2016"da iştirak etmiş qrupumuzun rəhbəri, birinci dərəcəli kapitan Sübhan Bəkirov bildirdi. - Müdafiə naziri general-polkovnik Zakir Həsənov dövlət rəhbərliyinin tələblərinə uyğun olaraq bütün qoşun növlərində, o cümlədən Hərbi Dəniz Qüvvələrində döyüş hazırlığının artırılmasına xüsusi önəm verir. Döyüş hazırlığı planına əsasən il ərzində hərbi hissələrimizdə kompleks tədbirlər həyata keçirilir, taktiki təlimlərdə bölmələrimiz öz bacarıqlarını durmadan artırırlar. Təbii ki, hərbi dənizçilərimizin müsabiqədə fəxri ikinci yeri tutması bütün bu amillərin hesabına başa gəlib.

Azərbaycan hərbi dənizçiləri ikinci dəfə idi ki, ordu oyunlarına qatılırdı.

Müsabiqədə əsasən üç mərhələ nəzərdə tutulmuşdu. Birinci mərhələdə gəmi silahlarının təyinatı üzrə tətbiq edilməsi, ikinci mərhələdə gəminin salamat qalması, üçüncü mərhələdə isə heyətlərin dənizçilik vərdişləri və xilasetmə hazırlığı üzrə yarışlar nəzərdə tutulmuşdu

Avqustun 1-də "Xəzər Kuboku-2016" yarışlarına start verildi. Yarışda ölkəmizi G124 gözətçi, Rusiyanı "Uqliç" kiçik raket, Qazaxıstanı isə "Oral" raket-artilleriya gəmiləri təmsil edirdi.

Birinci mərhələdə müsabiqənin şərtlərinə əsasən, hərbi gəmilər dəniz poliqonunda Su-24 təyyarəsindən atılmış hava hədəfini təqlid edən işıqsaçan aviasiya bombasını gəminin artilleriya sılahı ilə məhv etməli idi. Bu mərhələdə təkcə hədəfi məhv etmək deyil, gəminin manevr qabiliyyəti, poliqona daxil olaraq hədəfə müəyyən edilmiş distansiyaya yaxınlaşması və atışdan sonra dəniz döyüşünü tərketmə kimi elementləri yarışın qaydalarına uyğun yerinə yetirmək tələb edilirdi.

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin G124 gözətçi gəmisinin heyəti ilk epizodda ən yüksək nəticə göstərdi - hava hədəfi ilk atışda məhv edildi. Onlar döyüş çalışmasını yüksək səviyyədə yerinə yetirərək 40 bal topladılar və mərhələni birinci yerdə başa vurdular.

Növbəti epizodda suüstü hədəfin məhv edilməsi nəzərdə tutulurdu. Hədəf çox uzaqda - 4500 metr məsafədə yerləşirdi. Burada da hakimlər gəmilərin heyətləri tərəfindən yarış qaydalarına düzgün əməl edilməsinə ciddi diqqət yetirirdilər. Poliqona daxil olma, hədəfin məhv edilməsi və poliqonun tərk edilməsi konkret zaman çərçivəsində həyata keçirilməli idi.

Bu epizodda Qazaxıstanın "Oral" gəmisinin heyəti daha sərrast oldu. Azərbaycan hərbi dənizçiləri isə ikinci nəticə göstərdilər. Rusiya komandası üçüncü oldu.

Növbəti mərhələdə üzən minanın məhv edilməsi planlaşdırılmışdı. Müsabiqənin şərtlərinə görə, iştirakçı gəmi müəyyən edilmiş sürət həddini keçmədən dəniz poliqonuna daxil olmalı, 250 metrdən artıq yaxınlaşmayaraq hədəfi iriçaplı pulemyotdan 16 atəşlə məhv etməli idi.

Azərbaycan hərbi dənizçiləri qaydalara tam uyğun poliqona daxil olaraq atışları yerinə yetirdilər. Onlar hədəfi lazımi qaydada 280 metr məsafədən atəş açaraq məhv etsələr də, minanın partlamasında problem yaranmışdı. Belə ki, atəşlə partladılarkən minanın üzərindəki fişəng açılmalı idi. Ancaq bizim komendor ikinci atəşlə minanı məhv etsə də, mina partlamamışdı. Ona görə tez poliqonu tərk etmək əvəzinə hədəfə təkrar atəş açmaq məcburiyyətində qalmışdılar. Bütün mərmiləri atdıqdan sonra gəmi dəniz poliqonunu tərk etməli olmuşdu. Bu da əlavə vaxt itkisinə səbəb olmuş və nəticədə hərbi dənizçilərimiz həmin epizodda 40 balla ikinci yeri tutmuşdu. 50 bal toplamış rusiyalılar isə birinci nəticə göstərmişdilər.

Hərbi dənizçilər tərəfindən gəminin sağ qalması və xilasetmə tapşırıqlarının yerinə yetirilməsi də yetərincə çətin idi. Müsabiqə iştirakçıları gəminin sağ qalması epizodunu Kaspiysk şəhərindəki tədris-təlim kompleksində yerinə yetirdilər. Gerçək vəziyyətə yaxın şəraitdə dənizçilər xüsusi qəza avadanlığından istifadə etməklə gəminin gövdəsində yaranmış "dəliyi" tutmalı idilər. "Su ilə mübarizə" epizodunda ən yaxşı nəticəni rusiyalı hərbçilər göstərdilər.

Sonrakı mərhələdə dənizdə qoyulmuş çəlləyə bağlanmaq və lövbər atmaqla heyətlər gəmiləri dayandırmalı və müəyyən edilmiş kursda 10 dəqiqə saxlamalı idilər. Bu sonuncu mərhələdə də Azərbaycan dənizçiləri bütün rəqiblərindən yaxşı çıxış edərək 40 bal topladılar. Qazaxıstan dənizçiləri 35, Rusiya dənizçiləri isə 30 ballıq nəticə göstərdilər.

- Dəniz poliqonunda icra edilən atışların nəticələrinə görə hərbçilərimiz ən yaxşı göstəricilərə nail olmağı bacardılar, - ikinci dərəcəli kapitan Ömər Allahverdiyev fəxrlə bildirdi. - Ötən ilin "Xəzər kuboku" yarışlarına yekun vurularkən döyüş atışlarının nəticələri əsas götürülmüşdü. Azərbaycanın ordu dənizçiləri son göstəricilərə görə 100, rusiyalılar 95, qazaxlar isə 80 bal topladılar.

Ümumi nəticəyə görə, Rusiya hərbi dənizçiləri 192 balla birinci yeri tutdu. Azərbaycan hərbçiləri 187 balla ikinci nəticə göstərdi. Digər bir sıra amilləri nəzərə alan hakimlər Qazaxıstan hərbi dənizçilərinə də ikinci yeri verdilər.

Mükafatlandırma mərasimində Azərbaycan Hərbi Dəniz Qüvvələri komandanının müavini birinci dərəcəli kapitan Sübhan Bəkirov, Rusiya Federasiyası Xəzər Donanmasının komandanı kontr-admiral Sergey Pinçuk və Dağıstan Muxtar Respublikasının rəsmi nümayəndələri iştirak etdilər.

G-124 gözətçi gəmisinin zabiti baş leytenant İsrail Məmmədov nümayiş etdirdiyi bacarıq və peşəkarlığa görə fərdi mükafata layiq görüldü.

Yüksək döyüş hazırlığı nümayiş etdirdiklərinə görə hərbi dənizçilərimizə "Admiral-480" motorlu qayıq hədiyyə edildi. Komandaların iştirakçılarına həmçinin medal və fəxri fərmanlar təqdim edildi.



**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Tankçılarımız beynəlxalq yarışda Azərbaycanı layiqincə təmsil ediblər



*Xəbər verildiyi kimi, iyulun 30-dan başlanan hərbçilərin beynəlxalq yarışlarında iştirak edən Azərbaycan tankçıları və hərbi dənizçilərimiz ilk dəfə qatıldıqları bu mötəbər sınaqda ölkəmizi uğurla təmsil ediblər. "Tank biatlonu" müsabiqəsində təmsil olunan nümayəndə heyətinin rəhbəri, Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəis müavini polkovnik Sarı Xəlilov əməkdaşımızla söhbətində həm beynəlxalq səviyyəli yarış ərəfəsində Silahlı Qüvvələrimizdə həyata keçirilmiş hazırlıq işlərindən, həm də yarışlarda tankçılarımızın uğurlu nəticələrindən ətraflı danışıb.*



- Öncə qeyd etmək istərdim ki, belə yarışlar artıq dördüncü dəfədir ki, Rusiya Federasiyasında keçirilir, - deyə polkovnik bildirib. - Amma Azərbaycan ilk dəfədir ki, beynəlxalq səviyyəli yarışa qatılır. 17 ölkədən 18 komandanın qatıldığı bu mühüm yarışa hazırlıq işləri ilə bağlı fikirlərimi bildirmək istərdim. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq hərbi hissə və bölmələrdə yarışa ciddi hazırlıq görülürdü. Bu məqsədlə "Ən yaxşı tank heyəti" adı uğrunda hərbi hissələrdə müsabiqələr keçirildi, sonra isə Əlahiddə Ümumqoşun Ordusu və hərbi birliklər üzrə yarışlara yekun vuruldu. Ən yaxşı nəticə qazanmış - tankçılarımızdan ibarət nümayəndə heyəti Rusiyaya yola düşdü.

Polkovnik Sarı Xəlilov söhbətində bildirib ki, yarışlar iki mərhələdə - fərdi və estafet formasında təşkil edilmişdi. "Silahlı Qüvvələrimizin tankçıları digər ölkələrdən olan həmkarları ilə açılış mərasimində düzülərkən həmin dövlətlərin bayraqları ilə bir cərgədə Azərbaycanımızın da üçrəngli bayrağı əzəmətlə dalğalanırdı. Bu səhnəyə baxanda adamı qürur hissi bürüyürdü. İki mərhələdə keçirilən yarışlarda hədəflərin dəqiq vurulması ilə bərabər sürücü-mexaniklərin çevikliyinə də fikir verildi. Başqa ölkələrlə müqayisədə Azərbaycan hərbçilərinin daha artıq müsbət nəticə göstərmələri burada iştirak edən hərbçi - mütəxəssisləri heyran etmişdi. Xüsusən də Rusiya Federasiyasının nümayəndələri tankçılarımıza heyranlıqla "Afərin" deyirdilər. Finalda fərdi və estafet yarışlarının nəticələrinə görə 5-ci və 6-cı yerləri tutan hərbçilərimizə "Beynəlxalq Ordu Oyunları"nın təşkilat komitəsi tərəfindən medallar təqdim edildi. Əlbəttə, ilk dəfə olaraq belə yarışlarda iştirak etdiyimizə görə nəticələrimiz mütəxəssis-ekspertlər tərəfindən yüksək qiymətləndirildi. Təsəvvür edin, əvvəlki illərdə də belə yarışlarda iştirak etmiş işğalçı Ermənistanın komandasından üstün olduq. Qazandığımız nəticələr bir daha Silahlı Qüvvələrimizin yüksək döyüş qabiliyyətinə malik olduğunu sübuta yetirdi. Bizim üçün olduqca fərəhlidir ki, avqustun 14-də Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Rusiyanın Müdafiə nazirini qəbul edən zaman qeyd etdi ki, Beynəlxalq Ordu Oyunlarında Azərbaycan komandasının ilk dəfə çıxış etməsini nəzərə alsaq, nəticəni uğurlu hesab etmək olar. Sergey Şoyqu da öz növbəsində Azərbaycan hərbçilərinin beynəlxalq yarışda iştirakını çox yüksək qiymətləndirdi".

Polkovnikin sözlərinə görə, "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımızdan cəbhə bölgəsindəki "N" hərbi hissəsinin giziri Cəfər Zeynalovun və Əlahiddə Ümumqoşun Ordunun giziri Əlikərəm Bədəlovun komandiri olduqları tank heyətləri ən yüksək nəticə göstərdilər. Tankçı zabitlərimizdən kapitan Rəşad Atakişiyev isə "Ən yaxşı tankçı" nominasiyasında qalib olub. Bağlanış mərasimində iştirak edən Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov bütün tankçılarımızın hər birini salamladı və uğurlara görə təşəkkürünü bildirdi. Vətənə qayıtdıqdan sonra da fədakar tankçılara Müdafiə naziri adından mükafatlar təqdim edildi".

Oxucularımız adından tankçılarımızı təbrik edirik və inanırıq ki, bundan sonra da onlar yeni uğurlara imza atacaqlar.

**Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**

# "Tank biatlonu" yarışlarında hədəfləri məhv etmiş gizir

*Azərbaycan tankçıları "Beynəlxalq Ordu Oyunları - 2016" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak ediblər. Müsahibimiz Azərbaycanı yarışlarda təmsil edən gizirimizdir. Gizir Elşən Möhlüd oğlu Əbdürrəhmanov - 1992-ci ildə Oğuz rayonunda anadan olub. Orta təhsillidir. Ailəlidir. 2 övladı var. 2010-cu ildən gizir kimi xidmətdədir.*



***- Hərbçi olmağına sövq edən səbəblər nə idi?***

- Sadə bir kəndli ailəsində dünyaya göz açmışam. Atam kənd təsərrüfatı ilə məşğul ola-ola bizi böyüdüb. "Vətənə iki əsgər böyüdürəm" sözünü onun dilindən tez-tez eşidirdim. Mənə böyüyəndə kim olacaqsan sualı veriləndə əsgər olacam deyirdim. Axı atam əsgər böyütdüyünü deyirdi... İllər ötdü, böyüdük. Atam torpaqlarımızın işğalından danışanda ürəyim sızlayır, düşmənə nifrətim artırdı. Söz verirdim ki, əlimə silah alıb Vətənimin bütövlüyünə qəsd edənləri cəzalandıracağam. Və bu yoldan dönməyəcəyimə and içmişdim. Atamın dediyi kimi, artıq əsgər olmuşdum. Cəbhə bölgəsindəki "N" hərbi hissəsində tank heyətinin tuşlayıcı operatoru idim. Nizam-intizamlı olmağa, vəzifəmin öhdəsindən gəlməyə çalışırdım. Xidmətimin bitməsinə artıq 3 aydan da az vaxt qalırdı. Verdiyim qərarıma, içdiyim andıma sadiq qaldım. Tutduğum yoldan məni döndərəcək heç bir səbəb ola bilməzdi. Yuxarı komandanlığa gizir kimi xidmət etmək istədiyimi bildirdim. Təlim və Tədris Mərkəzində kurs keçdikdən sonra gizir kimi xidmətimi davam etdirirəm. Qardaşım Rəşad da ön xətdə yerləşən hərbi hissələrdən birində gizir kimi xidmətdədir. Atamın Vətən üçün böyütdüyü iki əsgər Vətənin keşiyində, torpaqlarımızı azad etməyə hazırdır.

***- "Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarında iştirak etmisən. Yarışlar barədə nə deyə bilərsən?***

- Rusiya Federasiyasının paytaxtı Moskva şəhəri yaxınlığındakı Kubinkada "Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarının təntənəli açılış mərasimi keçirildi. Azərbaycan və Zimbabve tankçıları yarışa ilk dəfə idi qatılırdı. Ermənilərin isə bu yarışlarda 4-cü iştirakı idi. Onlar bu yarışlarda dəfələrlə iştirak etmələrinə baxmayaraq istər fərdi, istərsə də komanda hesabında düşməndən qat-qat üstün olduğumuzu sübut edə bildik.

***- Azərbaycan tankçıları əsas hansı xüsusiyyətləri ilə fərqlənirdilər?***

- İstər Azərbaycanda, istər dünyanın istənilən nöqtəsində geyindiyimiz hərbi mundirlə dövlətimizi təmsil edirik. Bu yarışlarda iştirak etmək olduqca məsuliyyətli idi. Çünki xarici dövlətdə, digər ölkələrin orduları arasında, düşmənin iştirak etdiyi bir yarışda döyüş hazırlığımız, nizam-intizamımızla Azərbaycan Ordusunun güc və qüdrətini göstərməli, gücümüzü nümayiş etdirməliydik. Axı ordumuz ümummilli liderimiz Heydər Əliyevin bizə qoyduğu mirasdır. İlk dəfə yarışa qatıldığımız üçün yaxşı nəticə göstərə bilməyəcəyimizi düşünürdülər. Yarışların ilk günündən gücümüzü, bacarığımızı ortaya qoyduq. Nəticə isə göz qabağındadır. Ən yaxşı heyət sıralamasında 5-ci yeri tutmuşuq.

***- "Fərdi sürücülük" mərhələsində qazandığın uğur barəsində nə deyə bilərsən?***

- Bu mərhələ xüsusilə önəmli idi. Çünki 19 komandadan 12-si yarımfinala vəsiqə qazanacaqdı. "Fərdi sürücülük" mərhələsinin tələblərinə əsasən, hər tank heyəti uzunluğu 5 kilometr olmaqla 3 dairə keçməli, tankın topundan, zenit və qoşa pulemyotlardan atəş açmalı idi.

Tank heyətlərinin ümumi nəticələri cərimə balları da nəzərə alınmaqla məsafəni qətetmə vaxtı ilə birgə hesablanır. "Fərdi sürücülük" mərhələsinin nəticələrinə görə ən çox xal toplayan 12 komanda yarışların yarımfinalına çıxmaqla "Estafet" mərhələsində iştirak etmək hüququ qazanacaqdı.

Tank komandiri gizir Zəfər Zeynalov, sürücü-mexanik müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Bəxtiyar Həsənov və mən vəzifəmizin öhdəsindən uğurla gəldik. Hədəfə açdığım hər üç atəş dəqiq oldu. Nəticədə yarımfinala vəsiqə qazandıq. Bu mərhələdə də erməniləri qabaqlamağı bacardıq.

***- Ən böyük dəstəkçiniz kimdi?***

- Həyatda səni dəstəkləyən kimsənin olması gözəl hissdir. Tutduğum yol, seçdiyim peşə çətin, bir o qədər də qürurvericidir. Bu yolu seçəndə ən böyük dəstəyi ailəmdən gördüm. Ailəm hərbçi olmağımla nə qədər qürur duyursa, bu peşənin çətinliyini də mənim qədər dərk edir.

***- Sonda nə demək istəyirdin?***

Bu gün Silahlı Qüvvələrimiz Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı il əhatə olunub. Bu diqqəti hər addımda hiss edirik.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov bütün sahələrlə olduğu kimi, tankçıların xidməti ilə yaxından maraqlanır. "Beynəlxalq Ordu Oyunları - 2016" yarışlarının bağlanış mərasimində iştirak etməsi, bizlərlə şəxsən görüşməsi hər birimizdə ruh yüksəkliyi yaratdı.

Biz də söz veririk ki, növbəti yarışlarda daha uğurlu nəticələr əldə edəcəyik.

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

# Milli Qəhrəman “Topçu İsgəndər”in yubileyi təntənə ilə qeyd olunub

*Müdafiə Nazirliyi və Gədəbəy Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun anadan olmasının 60 illik yubileyi münasibətilə tədbir keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə Müdafiə Nazirliyinin rəsmiləri, Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Yediyarov, Milli Məclisin deputatı Xanhüseyn Kazımlı, həmçinin rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları və əsgərlər əvvəlcə vaxtilə İsgəndər Aznaurovun komandir müavini olduğu hərbi hissənin qarşısında ucaldılan büstü önünə əklil qoyaraq, şəhidin xatirəsini hörmət və ehtiramla anıblar.

Təntənəli mərasimi açan Müdafiə Nazirliyinin zabiti, polkovnik Abdulla Qurbani Azərbaycanın Milli Qəhrəmanı, şəhid İsgəndər Aznaurovun həyat və döyüş yolu barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Qeyd olunub ki, İsgəndər Aznaurov ahısqa türklərindəndir. Onun ata-babaları vaxtilə indiki Gürcüstan ərazisindən Orta Asiyaya sürgün olunub. İsgəndər Aznaurov 1956-cı il avqustun 16-da Özbəkistanın Buxara vilayətində anadan olub. Lakin 1980-ci illərdə Fərqanə vadisində baş verən hadisələrdən sonra digər ahısqa türklərinin ailələri kimi İsgəndər Aznaurovun da ailəsi Azərbaycana pənah gətirərək, Şəmkir rayonunun Kür qəsəbəsində məskunlaşıblar. 1992-ci ilin baharında isə İsgəndər Aznaurov Azərbaycan Milli Ordusu sıralarına zabit kimi daxil olaraq qısa müddətdə "topçu İsgəndər" kimi tanınıb. Çox keçmədən İsgəndər Aznaurov Gədəbəy rayonunda Başkəndin erməni quldurlarından azad olunmasında, Mutudərədə, Şınıxda, Ər dağı və Ləzgi dağında, eləcə də rayonun digər strateji əhəmiyyətli ərazilərində xeyli düşmən texnikasını və canlı qüvvəsini məhv edərək böyük qəhrəmanlıqlar göstərib. Hətta ermənilər bu şücaətlərinə görə onun başına yüksək məbləğdə vəsait də vəd ediblər.

İsgəndər Aznaurov 1993-cü ilin yazında qəhrəmanlıqla şəhid olub, iki il sonra - 1995-ci ilin yanvarında isə ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Hazırda Şəmkirin Kür qəsəbəsində orta məktəb və qəsəbə onun adını daşıyır. Xidmət etdiyi hərbi hissədə xatirəsinə abidə ucaldılıb, Gədəbəyin Şınıx kəndində isə Mormor yüksəkliyi onun şərəfinə "İsgəndər qalası" adlandırılıb.

Tədbirdə general-mayor Gəray Bağırov çıxış edərək Prezident, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu sahəsindəki fəaliyyətindən və Azərbaycan əsgərinin bu gün qarşıya qoyulan istənilən döyüş tapşırığını hər an yerinə yetirməyə hazır olmasından bəhs edib.

Mərasimdə Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Yediyarov çıxış edərək Gədəbəyin qəhrəman müdafiəçilərini xatırlayıb, onların şərəfli döyüş yollarından danışıb.



Tədbirdə Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun atası İzzət Rüstəmov, Milli Məclisin deputatı Xanhüseyn Kazımlı və Milli Qəhrəmanın döyüş yoldaşları çıxış ediblər.

Sonra İsgəndər Aznaurovun ailə üzvlərinin tədbir iştirakçılarına ünvanladıqları məktub oxunub. Şəhidin ailə üzvləri Prezident, Ali Baş Komandan İlham Əliyevə, Müdafiə Nazirliyinin rəhbərliyinə, eləcə də gədəbəylilərə İsgəndər Aznaurovun əziz xatirəsini daim uca tutduqları üçün və onun 60 illik yubileyini təntənə ilə qeyd etdiklərinə görə hörmət və ehtiramlarını ifadə ediblər.

Bir qrup hərbi qulluqçu mükafatlandırılıb, əsgərlərə gədəbəylilər adından sovqat paylanılıb.





## “İsgəndər qalası”nda Vətənin müdafiəçiləri ilə görüş

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı şəhid İsgəndər Aznaurovun 60 illik yubileyi münasibətilə keçirilən tədbirlər çərçivəsində "İsgəndər qalası"nın müdafiəçiləri ilə görüş olub.

Gədəbəy rayonunda dəniz səviyyəsindən 2300 metr yüksəklikdə, sərt relyef şəraitində təşkil olunan tədbirdə Müdafiə Nazirliyinin rəsmiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə qəhrəmanın xatirə lövhəsi qarşısına gül dəstələri düzülüb.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin zabiti, polkovnik Abdulla Qurbani "topçu İsgəndər"in həyat və döyüş yolu barədə ətraflı məlumat verib.

Şəhid Milli Qəhrəman Məzahir Rüstəmovun atası İzzət Rüstəmov isə 1992-1993-cü illərdə qəhrəmanla görüşlərini xatırlayaraq, gənc əsgərlərə unudulmaz xatirələrini bölüşüb.

Tədbirdə çıxış edən millət vəkili, professor Xanhüseyn Kazımlı, Gədəbəy rayonunun prokuroru Allahverdi Səfərov və başqaları Azərbaycan Ordusunun gündən-günə daha da qüdrətləndiyini, dünyanın ən müasir, nizami orduları sırasına yüksəldiyini fəxrlə qeyd ediblər.

General-mayor Gəray Bağırov isə çıxışında bu gün də Azərbaycan əsgərinin ata-babalarımızın qəhrəmanlıq ənənələrini uğurla davam etdirdiklərini bildirib.

Qalanın müdafiəçiləri adından çıxış edən hərbi qulluqçu, çavuş Sakit Həsənov qonaqları əmin edib ki, onlar bundan sonra da vətən, xalq və dövlət qarşısında əsgəri borclarını şərəflə yerinə yetirəcək, İsgəndərin, Məzahirin qanı hopan bu qalanı mərdliklə qoruyacaqlar.

Sonda Gəncə Qarnizonu Zabitlər Evinin hazırladığı "Türk oğlu - Azərbaycan Qəhrəmanı" sənədli filmi nümayiş olunub.



*Dünya ordularında müasir rabitə vasitələrinə önəm verilir. Zaman keçdikcə döyüşün idarə edilməsi üçün nəzərdə tutulmuş rabitə vasitələri də yenilənir, təkmilləşir. Aprel döyüşlərində uğurlu hərbi əməliyyatların idarə edilməsində rabitənin də əvəzsiz rolu olub. Son döyüşlərin fəal iştirakçılarından olan zabit Polad Həşimov bildirdi ki, hər zaman rabitəçilərin hazırlığına ciddi önəm verilib.*

# Rabitəçilər



Zabit Nail Səmədov ixtisasca rabitəçidi. Zamanında bu peşənin sirlərinə mükəmməl yiyələnib. O, söhbət zamanı rabitə sistemində daim yeniliklərin baş verdiyini deyir. "Döyüşün idarə olunmasında səyyar rabitə qurğuları ilə işləmək bacarığı önəmli məqsəd daşıyır. Müntəzəm keçirilən təlim-məşqlər rabitə vasitələri ilə bölmələrin idarə edilməsinin əhəmiyyətini artırır."

Düşmənlə təmas xəttində yerləşən bölmələrlə fasiləsiz əlaqə saxlamaq üçün rabitə qurğularından istifadə edilir. Bunun üçün mükəmməl təlim keçmiş, rabitə vasitələri ilə işləməyi bacaran əsgərlər döyüş postlarında xidmət aparırlar. Onlar əhatə dairəsində olan bütün məntəqələrlə müntəzəm əlaqə saxlayırlar.

Daha bir peşəkar rabitəçi - zabit Bəxtiyar Rüstəmov isə deyir ki, cəbhəboyu ərazidə müdafiə olunan bölmələrin fəaliyyətini öyrənmək üçün müasir rabitə ən etibarlı vasitədir.

Rabitə postundayıq. Növbətçi əsgər Fərid Əliyev bir ildən artıqdır ki, Binəqədi rayonundan hərbi xidmətə çağırılıb. Mexanik-radiotelefonçu ixtisasına hərbi xidmətdə yiyələndiyini deyir. "Əsgərliyimin ilk hədəflərində döyüş vəzifələrinə bölünəndə mənə dedilər ki, rabitə bölməsinə təyin edilmisən."

Əslində bu sahə onun üçün, özünün də qeyd etdiyi kimi, yenillik idi. İxtisas üzrə təlim-məşqlər başlananda rabitə qurğularını dərindən öyrənməyə çalışıb. Komandirlərinin köməyi sayəsində qısa müddətdə rabitənin sirlərini dərindən mənimsəyib. Nəzəri biliklərlə yanaşı rabitə qurğuları üzərində təcrübi məşğələlər keçib. Bu cür məşğələlər rabitənin daha yaxşı öyrənilməsinə şərait yaradıb.

Fərid deyir ki, bu ixtisasın maraqlı cəhətləri çoxdur, tanımadığı, heç zaman ünsiyyət saxlamadığı rabitəçilərlə danışmalı olur. "Səsindən onların kim olduğunu müəyyən edirəm. Bunun üçün həmişə məxfi danışıq cədvəli olur və onunla lazım olan məlumatları alır və ötürürəm", - deyir əsgər.

Rabitə postunda kapitan Həsən Həsənov, gizir Rəhman Əmirov və başqaları da döyüş postları ilə müntəzəm əlaqənin təmin edilməsinə məsuliyyət daşıyırlar. Burada hər bir hərbi qulluqçunun ayrı-ayrılıqda öz vəzifəsi var.

Başlıca məqsəd həm müdafiədə, həm də hücum zamanı bölmələr arasında rabitə əlaqəsinin müntəzəm təşkil edilməsidir.

Zabit P.Həşimovun qeyd etdiyi kimi, rabitəçilərin yüksək peşəkarlığa nail olmaq üçün daim bilik və bacarıqlarını artırmalıdırlar.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***18 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 11 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, İcevan rayonunun Berkaber, Vazaşen kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Aşağı Əskipara kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Tərtər rayonunun Çiləbürt kəndləri yaxınlığında, həmçinin Goranboy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***19 avqust 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 17 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt, Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Azərbaycan və ABŞ-ın hərbi tibb mütəxəssisləri arasında təcrübə mübadiləsi keçirilib




*Oklahoma Milli Qvardiyasının hərbi tibb mütəxəssislərindən ibarət nümayəndə heyəti tərəfindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi tibb üzrə mütəxəssisləri ilə informasiya mübadiləsi aparmaq və təcrübələrini bölüşmək məqsədilə seminar keçirilib.*

Seminar zamanı ABŞ və Azərbaycanın hərbi tibb mütəxəssisləri arasında hərbi tibb dəstəyinin göstərilməsi üzrə təlimlərin təşkilində metodologiyalar, tibbi kəşfiyyat, ilkin yardımın göstərildiyi məntəqələr, əməliyyatlar zonasının tibbi həva təxliyə sistemi, tibbi personal və avadanlıq ilə bağlı Cenevrə Konvensiyalarının tələbləri və tərəfləri maraqlandıran digər mövzularda müzakirələr aparılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Xəbərlər: hadisələr, faktlar

## Filippin Yaponiyadan hərbi gəmilər alıb



Filippin Cənubi Çin dənizində təhlükəsizlik və hüquq-mühafizə işlərinin yaxşılaşdırılması üçün Yaponiyadan 10 hərbi gəmi alıb.

Dənizin bu hissəsindən hər il 5 trilyon dollar dəyərində müxtəlif məhsullar daşınır. Eyni zamanda, burada böyük neft və qaz yataqları mövcuddur.

## İraqda qaçqınların qəbulu üzrə mərkəzin atəşə tutulması nəticəsində 12 nəfər həlak olub



İraqda qaçqınların qəbulu üzrə mərkəzin İŞİD terror qruplaşması tərəfindən atəşə tutulması nəticəsində 12 nəfər həlak olub, 35 nəfər yaralanıb. Bu barədə "Sky News Arabia" telekanalı məlumat yayıb.

Bağdaddan 200 kilometr məsafədə Salaxəd-din vilayətində yerləşən mərkəzdə terrorçuların tutduqları ərazidən qaçan ailələr məskunlaşıblar.

## Ankara və İstanbuldakı çevrilişə cəhdlə bağlı serial çəkiləcək



Türkiyənin PanaFilm şirkəti ötən ay Ankara və İstanbul şəhərlərində baş vermiş hadisələrlə bağlı serial çəkmək niyyətində olduğunu bildirib.

Bu barədə məlumat kinostudiyanın rəsmi tvitter səhifəsinə yer alıb.

Qeyd edək ki, yeni layihə Azərbaycanda da kifayət qədər tamaşaçı kütləsi olan "Qurdlar vadisi" serialının davamı kimi çəkiləcək. "Qurdlar Vadisi: Çevriliş" adlandırılacaq serialın ekranlara çıxma vaxtı açıqlanmır.

## Vətəndaş müharibəsi indiyədək Yəmənə 14 milyard dollar ziyan vurub



Vətəndaş müharibəsi bu günədək Yəmənə 14 milyard dollar ziyan vurub.

Ölkədə yenidənqurma işləri aparmaq üçün 7 milyard dollar, iqtisadiyyatı bərpa etmək üçün isə 7,3 milyard dollar vəsait tələb olunur. Dünya Bankı, BMT, İslam İnkişaf Bankı və Avropa İttifaqının birgə hesabatlarında bu barədə deyilir.

Qeyd edək ki, ölkə 16 aydır Hüsi üsyanı ilə bərabər, "Əl-Qaidə" terror təşkilatı ilə də mübarizə aparır. Qarşıdurmalar nəticəsində 6500 insan öldürülüb, 2,5 milyon insan isə yaşayış yerini tərk edib.

## Polşada Hitlerin yoxa çıxmış “qızıl qatarının” axtarışları başlayıb



Avqustun 16-da Polşada Hitlerin "qızıl qatarının" axtarıldığı yerə ağır texnika gətirilib və qazıntı işləri başlayıb.

Təşkilatçıya təxminən 40 min dollara başa gələn axtarışlarda 70-dək mütəxəssis iştirak edir.

Polşada nasist Almaniyasının 150 metr uzunluğunda olan və qiymətli metallar, həmçinin qızıl daşıyan zirehli qatarı "qızıl qatarı" adlandırılır. II Dünya müharibəsinin sonlarında qatar almanlara məxsus Breslau (hazırda Polşanın Vrotslav şəhəri) qalasından çıxaraq Valbjixə yollanan zaman müəmmalı şəkildə yoxa çıxıb.

Alimlər və dəfinə axtaranlar qatarın SSRİ aviasiyasından gizlənmək üçün tunellərdən birinə girdiyi və sonradan həmin tunelin bombardman nəticəsində dağıldığı barədə dəfələrlə ehtimallar irəli sürüblər.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Jurnalistlərin təlimi

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi kütləvi informasiya vasitələri nümayəndələrinin cəbhəboyu zonada fəaliyyətlərinin tənzimlənməsi haqqında tədbirlər planı üzrə keçirilən təlimlər yekunlaşdı.*

Bildiyimiz kimi, təlimlərin keçirilməsində əsas məqsəd media nümayəndələrinə ekstremal situasiyalarda - döyüş yerindən, cəbhədən KİV-ə material hazırlamağın hüquqi-təcrübi-psixoloji qaydalarının öyrədilməsi və cəbhə xəbərlərini yayarkən xüsusi peşəkarlığın aşılanmasıdır. Xatırlatmaq istəyirəm ki, iki qrupdan ibarət media təmsilçilərinin cəbhə bölgəsində dağ təlimləri nəzərdə tutulmuşdu. Təlimçi jurnalistlərin "xidmət" "yer"indəki fəaliyyətləri barədə məlumatlar qəzetimizin əvvəlki saylarında dərc olunan məqalələrdə öz əksini tapıb.

İlkin hərbi vərdişlərə yiyələnən jurnalist "taqımı" hərbin nizam qaydalarına hər dəfə ciddi əməl edib. Jurnalistlər təhlükəsizlik qaydalarına riayət edilməsi barədə təlimatlandırılıb. Onlar əvvəlcə dağlıq ərazidə yerləşən ön xətt bölmələrində xidmətin hansı şəraitdə aparılması üsullarını öyrənib və müşahidə postlarında düşmən tərəfi izləyiblər. Burada keçirilən təlim-məşğələlərdə vacib olan bütün qaydalar diqqətə çatdırılıb. Həmçinin jurnalistlərə ərazinin relyef xüsusiyyətləri, topoqrafik elementləri və döyüş prosesini izləyərkən özünüqoruma imkanları haqqında bilgilər verilib. Döyüş meydanında yaralanarkən və yaxud xəstələnərkən ilkin tibbi yardımın göstərilməsi və xilasolma tədbirləri təcrübəli tibb heyətinin praktiki fəaliyyətində nümayiş etdirilib. "Taqım"ın dağlıq və meşəlik ərazidə, çətin relyefdə təlimi uğurla davam edib..." Qəflətən düşmənin kəşfiyyat-diversiya qrupunun hücumuna məruz qalan jurnalistlər mövqe seçərək "təhlükə"dən qorunmağı bacarıblar."



Çöl dərslərində jurnalistlərə məhdud şəraitdə həyatda sağ qalmağın üsulları praktik olaraq öyrədilib. "Taqım"la təlim-məşğələni baş leytenant Elgün Əhmədov aparıb.

"N" hərbi hissəsinin zabiti baş leytenant Xəzər Təhməzov da təlimçi jurnalistlərə ərazidə, döyüş şəraitində səmtləşmənin üsullarını izah edib, oriyentirlərin seçilməsi və sadə üsullarla ərazidə məsafənin təyin edilməsi barədə ətraflı danışıb.

Təcrübəli zabitlər tərəfindən təlim iştirakçılarına çöl dərslərində azimutla hərəkətin təşkili və ardıcıllığı həm nəzəri, həm də praktiki öyrədilib. Dörd qrup arasında keçirilən təlim yarışmada hədəflərə vaxtında çatan jurnalistlər qalib elan edilib.

Ərazidə kəşfiyyat-diversiya qruplarının və terrorçuların əlinə keçərkən davranış qaydaları təlimçi jurnalistlərə əyani surətdə göstərilib.

Media mümayəndələrinin təlimləri cəbhə bölgəsindəki "N" hərbi hissəsinin döyüş fəaliyyəti ilə tanışlıqla başa çatıb.

Sonda xüsusi olaraq vurğulamaq lazımdır ki, təlimlərdə iştirak edən KİV-təmsilçiləri hər addımda Müdafiə Nazirliyi rəhbərliyinin diqqət və qayğısını hiss edib, vacib olan peşə vərdişlərini yetərincə mənimsəyiblər. Onlar yaradılan yüksək şəraitə görə Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlıqlarını bildiriblər.

**Lalə HÜSEYNOVA, "Azərbaycan Ordusu", foto çavuş N.PƏNAHOVUNDUR**

## *Silahlar*

# "Gürzə" xüsusi təyinatlılar üçün nəzərdə tutulub

*Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin mühəndisləri tərəfindən yaradılmış "Gürzə" patrul maşını bir sıra üstün keyfiyyətləri ilə mütəxəssislərin diqqətini cəlb edib.*



"Gürzə" patrul maşını barədə ilk dəfə məlumatı 2012-ci il dekabrın 17-də Müdafiə sənayesi naziri Yavər Camalov kütləvi informasiya vasitələrinə məlumat verib. Xüsusi təyinatlı qüvvələr və güc strukturları üçün nəzərdə tutulmuş avtomobil bir sıra beynəlxalq silah sərgilərində nümayiş etdirilib və hərbi ekspertlər tərəfindən müsbət rəy qazanıb.

Toyota modelinin bazasında hazırlanmış "Gürzə" 4x4 təkər formuluna və 2500 kq yük daşıma imkanına malikdir. Maşının silahlanmasına üst hissədə 360 dərəcə bucaq altında fırlana və 45 dərəcə bucaq altında hədəflərə atəş açma bilən 12.7 mm-lik 1 ədəd pulemyot, yanlarda isə 2 ədəd 7.62 mm çaplı pulemyot, bu silahlar üçün böyük həcmdə patron ehtiyatı daxildir. Maşının silahlanmasına həmçinin avtomatik qumbaraatan və digər vasitələr əlavə etmək olur. Yüksək keçicilik qabiliyyətinə malik maşın 114 at gücündə mühərriklə təchiz olunub. "Gürzə" sürücü və komandir daxil olmaqla 5 nəfər heyətə malikdir.

Müdafiə Sənayesi Nazirliyinin istehsalı olan avtomobil ilk dəfə Türkiyənin İstanbul şəhərində keçirilən İDEF-2013 beynəlxalq müdafiə sərgisində nümayiş olunub.

**"Azərbaycan Ordusu"**

# "Rio-2016" Yay Olimpiya Oyunları




## Güləşçimiz Mariya Stadnik gümüş medal qazanıb



"Rio-2016" Yay Olimpiya Oyunlarında 48 kiloqram çəki dərəcəsində mübarizə aparan güləşçimiz Mariya Stadnik səkkizdəbir finalda argentinalı Patrisia Alexandra Bermudez ilə qarşılaşıb. Rəqibini təmiz qələbə ilə məğlub edən Mariya dörddəbir finala adlayıb. Ardınca Polşa təmsilçisi İvona Matkovskaya qalib gələn idmançımız yarımfinala yüksəlib. Mariya Stadnik bu mərhələdə bolqarıstanlı Elitsa Yankova üzərində təmiz qələbə qazanaraq finala yüksəlib.

Həlledici görüşdə o, Eri Tosaka ilə üz-üzə gəlib. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə Mariya Stadnik son saniyələrdə məğlub olaraq "Rio-2016"nın gümüş medalı ilə kifayətlənib.

## Valentin Demyanenko ölkəmizə daha bir gümüş medalı qazandırıb



"Rio-2016"da birnəfərlik kanoe qayığı (C-1) ilə 200 metr məsafəyə final yürüşü keçirilib.

Azərbaycan idmançısı Valentin Demyanenko da həlledici mərhələdə qüvvəsini sınayıb.

33 yaşlı atletimizin çinli Qianq Li, ispaniyalı Alfonso Benavides Lopes de Ayala, fransalı Tomas Simar, gürcüstanlı Zaza Nadiradze, braziliyalı İsakias Keyruş dos Santos, Azərbaycan yığmasının sabiq üzvü, hazırda Rusiyanı təmsil edən Andrey Kraytor və Yuri Çebana qarşı yarışıb.

Finalda məsafəni 39.493 saniyəyə qət edən idmançımız gümüş medal qazanmağı bacarıb.

## Kamran Şahsuvarlı yarışları bürünc medalla başa vurub



"Rio-2016" Yay Olimpiya Oyunlarında Azərbaycan boksçusu Kamran Şahsuvarlı (75 kq) dördüncü görüşünə çıxıb.

Yarımfinal mərhələsində dünya çempionu, Panamerika Oyunlarının birincisi, kubalı Arlen Lopeslə qarşılaşan Kamran Şahsuvarlı rəqibinə məğlub olaraq "Rio-2016"da çıxışını dayandırıb və Olimpiya Oyunlarını bürünc medalla başa vurub.

## Azərbaycan güləşçisi Nataliya Sinişina bürünc medala sahib olub



"Rio-2016" Yay Olimpiya Oyunlarında güləş yarışlarının beşinci günündə 53 kiloqram çəki dərəcəsində çıxış edən Nataliya Sinişina ilk görüşündə yaponiyalı 13 qat dünya və üççat Olimpiya çempionu Saori Yoşidaya məğlub olub. Rəqibin finala yüksəlməsi ilə güləşçimiz təsəllivericі görüşlərdə iştirak hüququ qazanıb. Bürünc medala gedən yolda güləşçimizin ilk rəqibi seneqallı Elezabet Sambu olub. Rəqibini məğlub edən Nataliya Sinişina üçüncü yer uğrunda görüşdə venesuelalı Angelisa Arquelladan üstün olub və "Rio-2016"nın bürünc medalını qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Ceyhun CƏFƏRLİ | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 467 Nüsxə 4650 |